# Gənc kinorejissor Elvin Əhmədov:
# "Heç bir film konfet kağızı ilə çəkilmir"

*"Dolu" filmindəki Pələng rolu ilə populyarlıq qazanan Elvin Əhmədov yeni işini tamaşaçılara təqdim etdi. Bu dəfə o, publikanın qarşısına quruluşçu rejissor kimi çıxdı. "Sara" Elvin Əhmədovun müstəqil çəkdiyi ilk bədii filmdir, bu ekran işində baş rollardan birini - Sərxan obrazını özü oynayır.*

*Bu günlərdə "Nizami" Kino Mərkəzində qala-gecəsi keçirilən "Sara" mətbuatda, sosial şəbəkələrdə müzakirə olunur, film barədə müxtəlif fikirlər səslənir. Elvin Əhmədov ərsəyə gətirdiyi "Sara" haqqında "Ədalət"ə danışır. Gənc kinorejissor və aktyorun, istedadlı dostumuzun söhbətində sevinc hissləri də var, kədər notları da. Keçirdiyi sevinc hisslərini başa düşmək çətin deyil, ilk bədii filmi viziona çıxıb, tanınmış ədəbiyyat və mədəniyyət xadimlərinin iştirakı ilə təqdimat mərasimi keçirilib. Rasim Balayev, Qurban İsmayılov, Fuad Osmanov kimi sənətkarlar filmdə rol alıblar.*

*Bəs kədər notları niyə? Qoy bütün suallara Elvin bəy özü cavab versin.*




**- "Dolu" da daxil olmaqla son illər müxtəlif filmlərdə, teleseriallarda aktyor kimi çəkilən, ikinci rejissor olaraq çalışan Elvin Əhmədovun arzuladığı gün yetişdi. Debüt filminlə bağlı təbrikləri və iradları qəbul edirsən...**

- Tələbəlik illərimdən kino aləmindəyəm, həmişə də öz filmimi çəkəcəyim günü gözləmişəm. İnsanın istəyi, arzusu bir günə, bir həftəyə və bir aya reallaşmır, bunun üçün müəyyən bir zaman keçir. Mən də bu arzuma çatmaq üçün 7-8 il idi ki, yol gəlirdim. Arzusuna yetən hər bir insan kimi təbii ki, müəyyən sevinc hissləri keçirirəm.

**- Məhz "Sara" ilə başlamağın da yəqin təsadüfi olmayıb...**

- Yox, heç bir təsadüfdən söhbət gedə bilməz. Yaxın dostum Cəmil Cəfərovla bu barədə çox düşünüb-daşınmışdıq. Cəmilin prodüserlik bacarığına yaxşı bələd idim, o da mənim kinoya baxışımı bilir və qiymətləndirirdi. Çəkmək və həm də çəkilmək istədiyimiz bu film barədə dostumuz Fərəc Süleymanova da danışdıq, qısa müddətdən sonra Fərəcin ədəbi ssenarisi artıq hazır idi. Bundan sonra rejissor ssenarisi üzərində çalışmağa başladım. Son illər əməkdaşlıq etdiyim "Mediamaster" prodüser mərkəzinin rəhbəri Rüstəm Əliyev ssenari ilə tanış oldu və filmin istehsalına xeyir-dua verdi. Tələb olunan hazırlıq prosesi çox da uzun çəkmədi, çünki psixoloji cəhətdən özümü tam hazırlamışdım. Belə olanda filmin çəkilişlərinə başlamaq asan olur. Ötən ilin sentyabrında çəkilişlərə start verdik və demək olar ki, nəzərdə tutduğumuz vaxtda da işlərimizi yekunlaşdıra bildik. Elə ilk günlərdən mənim və "Sara" üzərində çalışan komandanın bir məqsədi var idi - bir Azərbaycan filmi olaraq Amerika filmlərindəki dinamikanı gətirməklə tamaşaçılarımıza həzz yaşatmaq. 2000-ci illərin əvvəllərində ABŞ-da çəkilən 70-80 dəqiqəlik döyüş filmləri yəqin ki, hamının yadındadı, bizim tamaşaçılar həmin filmləri üçün darıxmağa başlamışdı. Qala-gecəsinə dəvət etdiyimiz qonaqlar, bu gün bilet alıb kinoteatrlarda "Sara"nı izləyən insanlar bilir ki, bizim film təkcə elə döyüş səhnələrindən ibarət deyil, treyler janrında çəkdiyimiz bu filmdə sevgi də var, incə yumor da. Filmin qəhrəmanı, Cəmil Cəfərovun yaratdığı keçmiş döyüşçü Bəxtiyar finalda zabit formasında görünür. Bununla gənclərimizdə vətənpərvərlik hissləri aşılamaq istəmişik. Azərbaycan hərbçisi torpağını, dəyər verdiyi insanları, gözəl xanımını qorumağı bacarır.

Bu gün Azərbaycanın qüdrətli kino aktyorları var ki, onlar müxtəlif səbəblərdən az-az çəkilirlər, necə deyərlər, çəkiliş meydançası üçün darıxırlar. Elə tamaşaçılar da belə sənətkarları tez-tez ekranda görmək istəyir. Film barədə düşünəndə bu məsələni də nəzərə almışdıq, şükür Allaha ki, bu istəyimi də həyata keçirə bildim. Rasim Balayev kimi korifey aktyorumuz debüt filmimə çəkilməyə razılıq verdi, həm kinoda, həm də teatrda maraqlı obrazlar yaratmaqla tamaşaçı rəğbəti qazanan Qurban İsmayılov, Fuad Osmanov bizim filmdə rol aldılar. Məhz belə peşəkar insanlarla çiyin-çiyinə çalışıb, məncə, baxımlı bir iş ərsəyə gətirə bildik. Qala-gecəsində özünüz də gördünüz ki, "Nizami" Kino Mərkəzində boş yer tapmaq mümkün deyildi. Amma film başlayan kimi zalda sakitlik yarandı. Sözün açığı, bu sakitlik mənim xoşuma gəldi, deməli, tamaşaçılar filmdəki hadisələri maraqla izləyirdi. Həmin sakitlik yalnız sonda - film başa çatandan sonra səslənən alqışlarla pozuldu. Təqdimat mərasimindən ötən bu günlər ərzində "Sara" ilə bağlı çoxlu təbriklər alıram, xoş sözlər eşidirəm. Mətbuat, sosial şəbəkələr vasitəsilə, telefonla münasibət bildirən xeyli insan var. Bu təbii ki, məni sevindirir, amma kədərləndiyim, narazı qaldığım məqam da var...

**"Rasim Balayev kimi böyük sənətkar bəyənməsəydi "Sara"ya çəkilməzdi"**

**- Hansı məqamdı belə?**

- "Sara" artıq kinoteatrlarda nümayiş etdirilir. Viziona çıxdığı gündən filmi izləyən tamaşaçıların sayı məni hələ ki, qane etmir. Səmimi deyim ki, mən başqa cür gözləyirdim. Son zamanlar bizdə çoxlu kommersiya filmləri çəkilir və onların da əksəriyyəti komediya janrında olur. Biz "Sara"nı çəkməyə başlayanda sosial şəbəkələrdə bununla bağlı müzakirələr aparırdıq, insanlar belə komediya filmlərindən bezdiklərini, dram və tiriler janrlarında filmlərə baxmaq istədiklərini bildirirdilər. Rasim Balayev kimi böyük sənətkarı yenidən filmə çəkdiyimizə görə minnətdarlıq edirdilər. Tamaşaçı bilməlidir ki, heç bir film konfet kağızı ilə çəkilmir, biz bu filmi çəkilişlərinə maliyyə tapmaq üçün çox əziyyət çəkmişik. Çox istərdim ki, dəyərli tamaşaçılar bizim bu əziyyəti qiymətləndirsin. Kinoteatrlara gedib "Sara"ya baxmaqla bizə dəstək olsunlar.

**- Tamaşaçı sayı ürəyincə deyil. Xalq artisti Rasim Balayevin bu ərəfədə mətbuatda açıqlaması "Sara"nın əleyhinə işləyən amil ola bilərmi?**

- Sırf bu məsələnin tamaşaçı sayına mənfi təsir etdiyini düşünmürəm. Əvvəla, anti-reklam özü də bir reklamdı. Lakin biz bu məsələyə reklam kimi baxmırıq. İkinci vacib bir detalın "Ədalət"in hörmətli oxucularının bilməsini istəyirəm. Dəyərli sənətkarımız, gözəl insan Rasim Balayev heç bir açıqlamasında konkret bizim filmin adını çəkməyib. Bildiyim qədəri ilə Rasim müəllimin son günlər qəzetlərdə və saytlarda yayılan həmin açıqlaması xeyli müddət əvvəl alınıb. Ustad aktyorumuz onu dəvət edən və maliyyə çətinliyi üzündən yarımçıq qalan hansısa filmi nəzərdə tutub. Necə deyərlər, biz də bu çayın axınına düşüb üzmüşük. Bu məsələni "Sara"nın üzərinə yönəltməklə kimlərsə tək quruluşçu rejissor kimi mənə yox, film üzərində çalışan komandamıza qarşı yalan və böhtan atır. Bunun alçaqlıqdan başqa adı yoxdu.

"Sara"nın rejissor ssenarisi hazırlananda mən artıq kimləri çəkəcəyimi bilirdim, ona görə də heç bir kastinq aparmağa ehtiyac görmədim. Cavanşir obrazı da məhz Rasim Balayev üçün yazılıb. Sözün düzü, ilk dəfə təklif olunanda Rasim müəllim bu rola çəkilmək istəmədi, dedi ki, bəlkə İlham Əsgərovu dəvət edəsiniz. Xalq artisti İlham Əsgərovun sənətinə və şəxsiyyətinə böyük hörmətim var idi. Çox təəssüf ki, belə bir sənətkarı çox tez itirdik. Amma bayaq dediyim kimi, Cavanşir obrazında məhz Rasim müəllimi görürdüm. Sonrakı söhbətlərimizdə dəyərli sənətkarımızla razılığa gəldik. Rasim Balayev bizim filmdə 4 gün çəkilib, Salyanda və Bakıda aparılan çəkilişlərdə onun üçün hər cür şərait yaradılıb və sonda bütün məsələlərdə razılığa gəlmişik. Bu məsələnin detallarına varmaq istəmirəm. Aldığım ailə tərbiyəsi heç vaxt imkan verməz ki, özümdən yaşca və başca böyüyə hörmətsizlik edim. Rasim Balayev başda olmaqla qüdrətli sənətkarlarımızın hamısına diqqət və ehtiram göstərmək tək mənim yox, film sektorunda çalışan hər kəsin boynunun borcudu.

**- Rasim Balayevin təqdimat mərasiminə gəlməməsi...**

- Etibar bəy, sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Film istehsalatda olduğu müddətdə Rasim müəllimlə kinostudiyada bir neçə dəfə görüşmüşəm. Hər dəfə də işlərimlə maraqlanıb və filmə uğurlar arzulayıb. Qala-gecəsindən bir müddət əvvəl filmi ona göstərməyi planlaşdırmışdım, sadəcə alınmadı. Çünki həmin ərəfədə Rasim müəllimin ailə üzvlərindən biri əməliyyat olunduğundan filmə baxa bilmədi, amma mənə demişdi ki, təqdimatda hökmən iştirak edəcəm. Təəssüf ki, qala-gecəsinə bir gün qalmış Rasim müəllimin səhhətində problem yarandı, buna baxmayaraq, telefonla film üzərində çalışan hər kəsə təbriklərini çatdırdı. Mətbuata açıqlamasında da bildirdi ki, bu vəziyyətdə tamaşaçıların qarşısına çıxmaq istəmir. İcazə verin, bu mövzuya belə yekun vurum, Rasim Balayev "Sara" filminə çəkilib və film artıq ekranlara çıxıb. Rasim müəllim kimi qüdrətli aktyor bəyənmədiyi, razılaşmadığı filmə çəkilərdimi?

**- Uzun illərdi tanıdığım, istedadına və şəxsiyyətinə hörmət bəslədiyim Duyğu Dəvəlini Sara obrazında görmək mənim üçün xoş sürpriz oldu...**

- Sara rolu mənim üçün çox önəmli idi. Ssenari yazılan andan bu obraza Duyğu Dəvəlini çəkəcəyimi qətiləşdirmişdim. Duyğu xanımın istedadına və daxili zənginliyinə, kübarlığına yaxından bələd idim. Dostum sağ olsun ki, bu rolun öhdəsindən bacarıqla gəldi və kinoya maraqlı bir obraz bəxş etdi.

Bizim istedadlı aktrisalarımız çoxdu, onlara hörmətim var, indi deyəcəyim söz bəlkə də aktrisalarımız arasında birmənalı qarşılanmayacaq... Bizim aktrisalar obrazdan çox özlərinin qeydinə qalırlar. Təvazökarlıqdan uzaq olsa da, deyim ki, ilk filmimdə aktyor seçimini düzgün apara bildim. Yenə də o fikirdəyəm ki, xırda nöqsanları ilə bərabər "Sara" baxımlı filmdi. Debüt işimin uğurlu alınması üçün əziyyətə qatlaşan komandamızın hər bir üzvünə, maddi və mənəvi dəstək göstərən "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmova, "Mediamaster"in rəhbəri Rüstəm Əliyevə, "Sinema+" şirkətinin rəhbərliyinə, ustadlarım Elxan Cəfərova, Məmməd Səfaya, dəyərli yazıçımız, millət vəkili, istedadlı gənclərə daim dayaq duran Aqil Abbasa minnətdarlığımı bildirirəm. Aqil bəyin qala-gecəsindəki çıxışı, bu günlərdə mətbuatdakı məqaləsi filmin əziyyətini çəkən hər birimizə mənəvi dəstək oldu.

Ən böyük diqqəti isə tamaşaçılardan gözləyirəm, filmimizin tamaşaçı diqqətinə ehtiyacı var. Belə filmlərin prokatda daha çox qalması üçün dəstək vacibdir. Ona görə də tamaşaçıları kinoteatrlara gedib "Sara"ya baxmağa dəvət edirəm.

**Etibar CƏBRAYILOĞLU**